### “QOŞA ARMUD”

Göz önündə üç armudu,
Eləmişdik heç armudu.
Hər birimiz tuş-tuşuna,
Endirirdik daş başına.

Ad qoymuşduq: "Qoşa armud"
Heç demirdik: - yaşa, armud!
Yəqin bizdən incimisən,
Bağrın dönüb daşa, armud.

Çöldə bitən yemişanın
Görə-görə bəhrəsini,
Odun üçün bəzi nankor
İtilərdi dəhrəsini.

Anaxanımın daş armudu,
Armudların baş armudu.
Hər bir barın öz mövsümü,
O da payız, qış armudu.

“Yal zəmi”də tək qalırdı,
Fikrə-xəyala dalırdı,
Adamım ağlın alırdı
Namaz kişinin armudu.

Babamın ağ gilasları,
Cəlb edirdi uşaqları.
Toplaşırdıq oğrun-ğrun,
Şaxlayırdıq budaqların.

### “ABASIN ARMUDU”

“İdarə”nin düz önündə,
Bitmişdi “Abasın armudu”.
Az qala ki ayaq altda
İtmişdi “Abasın armudu”.

Kəndin ayağından başına qədər
Kimlər oturmayıb, de, kölgəsində
Az da olsa özün qorumaq üçün,
Yayın istisində, yayın günündə.




### “ƏYRİ ARMUD”

Bu qədər bar gətirmisən,
“Əyri armud”, de kiminsən?
Sındırılır qol-qanadın,
Bəlkə dərddən əyilmisən.

Yanındadı “Südlü armud”,
Şux bitmişdi dimdik armud.
Qədrinizi bilməmişik,
Yada düşür indi armud.

De, su olub axanmısan?
Şimşək olub çaxanmısan?
Sən “Yaylağa baxan”mısan?
Bu adı kim verib, armud?

Şükür olsun, el içində
Adın olub bəyan, armud.
Bu ad sənə çox yaraşır,
Yatmısanmı, oyan, armud.

### KEÇƏN GÜNƏ GÜN ATMAZ...

Meyvəsi tək-tək naxışlı,
Bəhlul kimi sərt baxışlı.
Yeyən bilər dadın nədi,
Hamı bilir adın nədi.

Yeyən kimi dəyişirdi,
Hər bir kəsin ağız dadı.
Dilimizdə car olmuşdu,
“Almazın qızıl armudu”

### “TƏK ARMUD”

Nüsüs arasında bitən tək armud
O kövrək yaşadı ölənə kimi.
Gələni, gedəni çox az olardı,
Meyvəsi yeməli olana kimi.

### QARAĞAC

Bütün naxırçının, çöl adamının
Həmişə qeydinə qalan qarağac.
Yaxşıya, yamana bir gözlə baxıb
Üstünə kölgəsin salan qarağac.

### DAĞDAĞAN

İlanboğan vaxtımızdan bizimlə
Yaxşı ünsiyyətdə olan dağdağan.
Xalqın ürəyində, xalqın qəlbində
Özünə yurd-yuva salan dağdağan.

### ÇOBAN VƏ KEÇİ

Yayın qızmarında çətindir, çətin,
Sözlərim sizlərə gəlməsin çeçin.
Keçi də çobandan betər tələsir,
Bulağın gözündən su içmək üçün.